

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (21.335)

18 sentyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində Heydər Əliyev adına parkda ümummilli liderin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyevə ulu öndərin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kürdəmirdə Bayraq Meydanının, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik körpələr evi-uşaq bağçasının, Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolunun, Yeni Azərbaycan Partiyası Kürdəmir Rayon Təşkilatının inzibati binasının açılışlarında iştirak edib, əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmirə səfəri çərçivəsində Möhübbət Əzimov adına Atakişili kənd tam orta məktəbinin binasının, Ağsu-Kürdəmir-İmişli avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində bu yolun Ağsu-Kürdəmir hissəsinin açılışlarında da iştirak edib.



## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafındakı xidmətlərinə görə:

Əliyeva Sona Akif qızına
Qurbanov Yaşar Qafar oğluna
Mahmudov Zülfiqar Xudaverdi oğluna
Məmmədov Ayxan Rəşid oğluna
Məmmədov Mustafa Məmməd oğluna
Məmmədov Natiq Hidayət oğluna – **“Əməkdar artist”** fəxri adı;

Qurbanov Qurban Pənah oğluna
Rüstəmov Tofiq Adil oğluna – **“Əməkdar mədəniyyət işçisi”** fəxri adı;

Abdullayev Dünyamalı Həsənqulu oğluna
Babayeva Məhəbbət Nizami qızına
Əliyev İsa Vəli oğluna
Nəcəfova Zəminə Məhərrəm qızına – **“Əməkdar müəllim”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 sentyabr 2015-ci il*

## Muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində hamilik uğurla davam etdirilir

Müasir dünyada hər bir sahədə inkişafın əsas hərəkətverici qüvvəsi ixtisaslı kadr hesab olunur. Ona görə iqtisadiyyatın müxtəlif sahələri üzrə kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada bu sahədə kompleks tədbirlər görülür. Son illər təhsil müəssisələri üçün müasir binaların tikilib istifadəyə verilməsi, onların lazımi tədris və əyani vəsaitlərlə təmin olunması, peşə məktəblərinin fəaliyyətinin genişləndirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Lakin bir məsələ xüsusilə qeyd olunmalıdır ki, kadr hazırlığı yalnız ali və orta ixtisas təhsili müəssisələrinin üzərinə düşən vəzifə olmamalıdır. Bu işdə aid dövlət təşkilatları da fəallıq göstərməli, ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə oxuyan gənclərlə əlaqələr genişləndirilməli, gələcəyin kadrları bu gündən hazırlanmalıdır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il 27 iyul tarixdə “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən, Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci üzrə 100-ə yaxın ixtisas muxtar respublikanın aid təşkilatlarına hamiliyə verilmişdir.

Ötən dövrdə sərəncamın icrası ilə əlaqədar hami təşkilatlar tərəfindən müxtəlif tədbirlər həyata keçirilmişdir. İlkin olaraq tələbələrin yay istehsalat təcrübələrinin təşkili diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublikasının Ədliyyə, Maliyyə, Rabitə və Yeni Texnologiyalar, Təhsil, Səhiyyə, Nəqliyyat nazirlikləri, Dövlət Energetika Agentliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikasındakı idarələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Dövlət Televiziya və Radio Verilişləri komitələri hamiliyə götürülən ixtisaslar üzrə tələbələrin yay istehsalat təcrübələrini təşkil etmişdir. Aid təşkilatlarla və tabe qurumlarla tanış olan tələbələrə həmin təşkilatların fəaliyyəti ilə bağlı məlumatlar verilmiş, ixtisaslı mütəxəssislər tərəfindən təcrübi məşğələlər keçirilmişdir.

Sərəncamda qarşıda duran əsas vəzifələrdən biri tədrisin vəziyyətinin yaxşılaşdırılması və bununla bağlı hami təşkilatların müvafiq köməklik göstərməsidir. Naxçıvan Muxtar Respublikasının Prokurorluğu tərəfindən Naxçıvan Dövlət Universitetinə hamiliyə götürülən ixtisas üzrə tələbələrin istifadə etmələri üçün əyani vəsait kimi kriminalistik texniki avadanlıqlar verilmişdir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi isə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin binasında 192 nömrəlik Karel tipli rəqəmli avtomat telefon stansiyası qurmuşdur. Həmçinin simsiz internet və fiber-optik kabel şəbəkələrinin, elektron kitabxananın qurulması nazirliyin mütəxəssisləri tərəfindən icra edilmişdir. Nazirliyin “Huawei” şirkəti ilə birgə əməkdaşlığı sayəsində “Naxçıvan” Universitetində İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi yaradılmışdır. 2010-cu ildən başlayaraq nazirlik ilə “Azercell” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında razılaşmaya əsasən hər tədris ili üçün Naxçıvan Dövlət Universitetinin 2 yaxşı oxuyan aztəminatlı tələbəsinin hər birinə 200 manat təqaüd verilir, 1 nəfər isə yay tətili müddətində “Azercell”in ofisində 3 aylıq, ayda 200 manat olmaqla haqqödənilən işə cəlb olunur.

Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyi Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində hamiliyə götürdüyü ixtisaslar üçün ayrılmış sinif otaqlarında yerüstü nəqliyyat vasitələri və onların texniki istismarına dair stendlər hazırlamışdır. Bununla yanaşı, tələbələrin uyğun ixtisaslar üzrə məşğələlərinin səmərəli keçirilməsi üçün Avtobus Parkında hərtərəfli şərait yaradılmış, xüsusi otaqlar ayrılmış, təmir sexlərində əyani vəsaitlər yerləşdirilmiş, təhlükəsizlik qaydalarına əməl olunması üçün təlimatlar hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün universitet tələbələri arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Uzunoba Su Anbarı ətrafında velosiped yarışı üzrə muxtar respublika və qaydasız döyüş növü üzrə Naxçıvan şəhər birincilikləri keçirmiş, nəticələri olan idmançı tələbələr haqqında məlumat bazası yaratmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikasının Güləş Federasiyası tərəfindən Naxçıvan Dövlət Universitetinə bir dəst güləş döşəyi verilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən Naxçıvan Dövlət Universitetində suvarma növləri üzrə təcrübə yeri, əyani vəsaitlərlə təmin edilmiş sinif otağı yaradılmışdır. Tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması, dəmir yolu peşəsinin sirlərinin dərindən öyrədilməsi üçün “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin dəstəyi ilə universitetdə 2 fənn kabinəsi qurulmuş, yük və sərnişin stansiyasının, yükboşaltma meydançasının işini, yük vaqonlarının avtomatik açılmasını və çəkilməsini, lokomotivlərin dəyişdirilməsini, mərkəzdən marşrutların avtomatik hazırlanmasını özündə əks etdirən real görüntülü müasir kompüter tipli maket quraşdırılmışdır. Bununla yanaşı, universitetə 12 ədəd əyani tədris vəsaiti və 20 adda 100 ədəd texniki ədəbiyyat, Naxçıvan Dövlət Texniki Kollecinə isə 30 adda 125 ədəd texniki ədəbiyyat, 113 ədəd əyani vəsait verilmişdir. Həmçinin 23 tələbə xüsusi dəmir yolu geyim forması və fərqlənmə nişanı ilə təmin olunmuşdur.

“Naxçıvan” Universitetindəki “Bank İşi Mərkəzi”nə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən elektron dərs vəsaitləri, digər əyani vəsaitlər, eləcə də tələbələrdə təcrübi vərdişlərin aşılanması məqsədilə bir ədəd POS-terminal verilib. Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi isə “Naxçıvan” Universitetinin kitabxanasına 100-dən artıq dərs vəsaiti və ixtisasa uyğun əlavə ədəbiyyatlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi 2015-ci il avqustun 5-də Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Evinin, avqustun 19-da isə Estetik Tərbiyə Mərkəzinin “Rəsm dərnəyi” üzvlərinə keçirdiyi ustad dərslərində müvafiq ixtisaslar üzrə tələbələrin də iştirakını təmin etmişdir. Naxçıvan Aşıqlar Birliyi isə tələbələrlə birlikdə 2015-ci il avqustun 1-də Şahbuz rayon Ahıllar evində konsert proqramı ilə çıxış etmiş, kollecin “Aşıq sənəti” ixtisası üzrə birinci kursuna qəbul olunmuş tələbələrlə görüş keçirmişdir.

Muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin məzunlarının hami təşkilatlarda işlə təminatı da diqqət mərkəzində saxlanılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda 2005-ci ildən başlayaraq prokurorluq tərəfindən keçirilmiş imtahanlarda Hüquqşünaslıq ixtisasını bitirən 59 nəfər işə qəbul edilmişdir. Bunlardan 31-i Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, 11-i Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunda xidmətə qəbul edilmiş, 17-si isə Azərbaycan Respublikasının digər rayon və şəhər prokurorluqlarında işləmək üçün göndərilmişdir. 2010-2015-ci illərdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını bitirən 26 nəfər Ali Məhkəmənin aparatında inzibati vəzifələr üzrə işə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən Radio Televiziya Ötürücü Mərkəzi, “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosunda 15, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində 6, Texniki Xidmət Mərkəzində 1 tələbə haqqıödənilən işlərə cəlb olunub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Naxçıvan Dövlət Universiteti üzrə 72, “Naxçıvan” Universiteti üzrə 17, Naxçıvan Müəllimlər İnstitutu üzrə 28 olmaqla, ümumilikdə, 117 nəfər muxtar respublikanın ümumtəhsil məktəblərində işlə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində və “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunda 7 tələbəni müvafiq işlə təmin etmişdir.

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti 2014-2015-ci tədris ilinin yay tətili dövründə 17 tələbəni mühəndis kimi müvəqqəti işə qəbul etmiş, ixtisaslı kadrların nəzarəti ilə onlar dəmir yolu peşəsinin incəliklərini öyrənmişlər. Naxçıvan Dövlət Universitetinin jurnalistika və digər ixtisaslarında təhsil alan 19 tələbəsi Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə işə cəlb olunmuşdur. Hazırda 5 tələbə isə kənar müəllif kimi dövlət teleradiosu ilə əməkdaşlıq edir.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, təhsil müəssisələrində dərslərin hami təşkilatların ixtisaslı mütəxəssisləri tərəfindən tədrisi təmin edilmişdir. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Ədliyyə, Daxili İşlər, Maliyyə, İqtisadiyyat və Sənaye, Rabitə və Yeni Texnologiyalar, Təhsil nazirliklərinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin, Dövlət Energetika Agentliyinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı, Dövlət Televiziya və Radio Verilişləri komitələrinin, Dini Qurumlarla İş üzrə İdarənin ixtisaslı mütəxəssisləri tərəfindən hamiliyə götürülən ixtisaslarda müvafiq dərslər tədris edilir.

Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamında qarşıya qoyulan vəzifələr 2015-2016-cı tədris ilində də hami təşkilatlar tərəfindən icra olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar Siyasət Məsələləri və İctimai Təşkilatlarla İş Şöbəsi**

Bir səfərin təəssüratları

# Nümunə sayılacaq inkişaf

*Naxçıvanın N saylı hərbi hissəsində keçirilən andiçmə mərasimi qürurverici, əsgər övladımızla görüşümüz əvvəllər heç dadmadığımız şirinlikdə idi. Əsgərlərin üzündə parlayan bir sevinc, valideynlərin simalarında isə iftixar şəfəqi vardı. Gənc zabitlər hislərini ciddi görkəmləri, sərt baxışları, soyuqqanlı tövrləri ilə büruzə verməsələr də, zabit portretini tamamlayan digər cizgiləri onların qayğıkeşliyindən, həssaslığından və ən başlıcası, peşəkarlığından xəbər verirdi. Belə bir hərbçi, zabit obrazı sanki əvvəllər bizə yad idi və onları qardaş türk ordusuna xas xüsusi cəhət kimi tanıyır, baxıb qibtə edərdik. İndi, şükürlər olsun ki, bu, Azərbaycan Ordusunda da bərqərar olmuş hərbçi, zabit obrazıdır.*



Andiçmə təntənəli və yüksək əhval-ruhiyyədə keçdi. Əslində, qeyri-adi nə isə baş verməmişdi. Doğrudur, hərbi andın qəbulu əsgər valideynləri üçün böyük mənəvi dəyərə malikdir. Ancaq elə hərbçi soyuqqanlığı ilə yanaşsaq, andiçmə bir vətəndaşlıq aktıdır. Axı vətəndaşlıq təkcə hüquq və səlahiyyətlərdən ibarət deyil. Vətəndaşlıq həm də vəzifələrlə səciyyələnir – Konstitusiya ilə təsbit olunmuş hərbi mükəlləfiyyət bu vəzifələrdən bəlkə də, birincisidir. Hərbi qulluq hər bir gəncin Vətən qarşısında təkcə mənəvi borcu yox, həm də hüquqi vəzifəsidir: sözsüz, müzakirəsiz, minnətsiz! Odur ki, Naxçıvana səfərimizə əsas olsa da, hərbi andiçmə mərasimindən deyil, daha çox bu unikal diyarda gördüklərimizin bir qismindən bəhs etmək istərdik.

Ümumilikdə, təəssüratımız son dərəcə xoş və rəngarəngdir. Amma müşahidə etdiklərimizin içində müəyyən detallar var idi ki, açığı deyək, bizi çox təəccübləndirmişdi. Bakının bəzi reallıqları içindən qəfil başqa bir dünyaya düşmüş kimi hiss etmişdik özümüzü. Şübhəsiz, müasir Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Paytaxtımız günbəgün deyil, saatbasaat inkişaf edir, böyüyür, müasirləşir. Sən demə, müstəqillik dövründə Naxçıvan da möhtəşəm inkişaf yolu keçibmiş.

Naxçıvanda ilk diqqətçəkən şəhərdəki səliqə-sahman, təmizlik, nizam-intizam, park və xiyabanların, yaşıllığın bolluğudur. Qeyd edək ki, Naxçıvan şəhəri də böyüyür və müasirləşir. Amma bu dinamik şəhərsalmada memarlıq və inşaat normalarının ən yüksək standartı əldə rəhbər tutulub: yolların, küçələrin, tikililərin ölçüləri və onlar arasındakı məsafələr, müxtəlif sahələr – yaşayış, piyada, yaşıllıq, ticarət, təhlükəsizlik, hətta gələcək perspektiv inkişaf, böyümə ehtiyatı zonaları nəzərdə tutulub. Şəhərin elementləri bir ahəngdə birləşdirilib ayrı-ayrılıqda fərdi seçilmələrlə bərabər ümumi ansamblda vəhdət yaradılıb. Buna görə də Naxçıvan şəhərində bir genişlik, panoram böyüklük hiss edilməkdədir.





Naxçıvan daim inkişafdadır, aybaay, ilbəil genişlənir. Qibtə ediləcək hal odur ki, bu böyümə, genişlənmə ciddi şəhərsalma prinsipləri, tikinti-inşaat normativləri əsasında həyata keçirilir. Şəhərin ətrafında yeni yaşayış massivləri salınıb. Amma nə qədər təəccüblü görünsə də, bu yeni kvartallar sanki memar tərəfindən layihə-çertyoj kağızı üzərində imtahan vermək üçün cızılıb: küçələrin paralel və perpendikulyar konturları sanki xətkeşlə çəkilib. Yolların çiyinləri düz xətt boyunca nişanlanıb. Şəxsi həyət evlərinin hasarları da ciddi şəkildə düz xətt prinsipinə əsasən qaldırılıb – yoldan "pay" qopardana, ümumi görünüşü pozub kəskin seçilənlərə, ümumiyyətlə, tikinti özbaşınalığına rast gəlinmir.

Naxçıvanda idarə-müəssisə, həmçinin kommersiya obyektlərinin tanıtma, eləcə də reklam lövhələri də konkret norma və prinsiplər əsasında tərtib olunub. Fərqliliklər var, amma bu, yeknəsəqlikdən qaçmaq üçün edilib. Nəticədə, nəzərəçarpacaq dərəcədə vizual ahəngə nail olunub: tərtibat üslublarında, rəng çalarlarında, ölçülərdə kəskin fərqlərə yol verilmədiyindən küçələr boyu hər obyektin təyinatını göstərən lövhələr şəhərin ümumi ansamblına xələl gətirmir. Əksinə, onu bir qədər də cəlbedici edir. Daha bir önəmli məqam: Naxçıvanda bütün küçə lövhə və bildirişləri təmiz, doğma Azərbaycan dilində, özü də səhvsiz, düz və sadə üslubda yazılıb...

Avtobus və taksi sürücüləri nəqliyyat vasitələrini istisnasız xüsusi dayanacaqlarda saxlayır, nizam-intizama ciddi riayət edirlər. Hamısı da səliqəli və təmiz, qalstuklu sürücü formasında! Buradakı sürücülük mədəniyyətindən də bəhs etmək istərdik. Naxçıvanda ikinci cərgədə, qaydalarla qadağan olunmuş yerdə maşın saxlayan sürücü görmədik. Sanki Azərbaycanda deyil, xaricdə idik: insanlar piyada keçidi zolaqlarına ayaq basan kimi bütün hallarda sürücülər maşınlarını saxlayıb onlara yol verirdilər. Şəhərdə nərildəyən-guruldayan, tüstüləyən, sınıq-salxaq maşın da gözə dəymirdi. Bütün maşınlar, o cümlədən "sovet dövrünün" avtomobilləri belə, istismar qaydalarının tələbləri səviyyəsində saz idi. Nə siqnal verən var idi, nə də yolda bir-birinin üstünə bağıran. Heç yuxarı tonla danışana da rast gəlmədik – hamı sakit, mülayim və mehriban dillə, başqalarını narahat etməyəcək tərzdə ünsiyyətə üstünlük verirdi...

Naxçıvan şəhəri kontinental, sərt yarımsəhra iqliminə malikdir. Burada qış qısa, ancaq çox soyuq və qarlı, yay isə əksinə, uzun, quru və isti keçir. Yayının şahidi olduq: göydən od ələnirdi. Amma nə sirr idisə Bakıdakı kimi bizi nə tər yuyub aparırdı, nə də nəfəsimiz təngiyirdi. Günün altında uzun müddət gəzməyimizə baxmayaraq, fiziki diskomfort hiss etmirdik. Hava quru (rütubət aşağı) olsa da, həm də təmiz idi. Təkcə hava deyil, ümumiyyətlə, şəhər təmizliyi, səliqə-sahmanı, həmçinin bol yaşıllığı ilə göz və ruh oxşayırdı. Xüsusi şövq və zövqlə salınmış geniş xiyabanlarda sıx yaşıl örtük yaradılmışdı. Bunun hansı ağır zəhmət bahasına başa gəldiyini təsəvvür etmək çətin deyil. Sərt iqlimli və suya kəskin ehtiyac duyulan yerdə, sözün əsl mənasında, cənnətdən bir guşə yaradılıb Naxçıvanda. Park və meydanlarda diqqətçəkən cəhətlərdən biri də onların inşaatında təbii materiallara üstünlük verilməsidir. Meydanlara, əsasən, müəyyən formaya salınmış təbii daş parçaları döşənib: sadə, ancaq gözəl görünür. Bu həm də keyfiyyət, uzunömürlülük deməkdir. İqtisadi səmərəliliyini, ucuzluğunu da nəzərə alsaq, şəhərsalmada təqdir ediləcək yanaşmadır. Son 19 il ərzində Naxçıvanda 15 min hektara yaxın sahədə yaşıllıq salınıb. Unikal göstəricidir.

Bu qədim türk – Oğuz elində bütün Azərbaycan xalqına xas qonaqpərvərliyin və insansevərliyin şahidi olduq. Hara getdiksə, təmənnasız diqqət və qayğı ilə əhatələndik. Hər şəhərin, yerin, yurdun ən dəyərli sərvəti onun insanlarıdır. Gözəlliklər diyarı Naxçıvanda bütün gözəllikləri daha gözəl edən onun insanları idi – sadə, zəhmətkeş və mehriban. Bu nizamı, səliqəni, qayda-qanunu məhz onlar yaratmışdılar. Çox böyük məmnuniyyətlə də bu intizama riayət edirdilər. Bu da ictimai şüur göstəricisi, birgəyaşayış, hüquq prinsiplərinin əxz olunması deməkdir.

Möminə xatın türbəsində, Xan sarayı xatirə muzeyində, Qızlar bulağında, istirahət, müalicə və ticarət mərkəzlərində olduq, park və xiyabanları gəzdik. Türbə və muzeyin güləruz əməkdaşları son dərəcə böyük məhəbbətlə tarixi abidələr, eksponatlar haqqında məlumat verdilər. Müxtəlif xidmət sahələrinin işçiləri də eyni qaydada vəzifələrini icra edir, müştəri məmnuniyyətini əsas götürürdülər.

Hər yerdə də təmizlik, sakitlik, səliqə-sahman hökm sürürdü. Nə yolda, nə küçədə, nə eyvandan, nə də maşından bayıra zibil, siqaret kötüyü atanı gördük, nə də balkonunu, mənzilini, obyektini artırma yolu ilə genişləndirib şəhərsalmada inqilabi "yenilik" edəni...

Bir günlük səfər çərçivəsində bir şəhərin hər üzünü öyrənib təsvir etmək haradasa mümkünsüzdür. Buna heç lüzum da yoxdur. Bir yerə gedən, səfər edən kəs üçün aldığı ilk təəssürat, keçirdiyi hislər o yer haqda fikir formalaşmasında həlledici rol oynayır. Önə keçən, rəy, fikir formalaşdıransa yuxarıda sadaladığımız gözəlliklər, fəzilətlərdir. O gözəlliklər ki, təkcə xoş təəssürat doğurmur, həm də Naxçıvanı sevdirir, doğmalaşdırır.

**Elxan QƏNBƏRLİ**
**"Azərbaycan" qəzeti**
**17 sentyabr 2015-ci il**

---

***Sentyabrın 17-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Kəngərli Rayon İcra Hakimiyyəti ilə birgə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr" barədə tədbir keçirmişdir. Yığıncağı Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq sığortanın əhəmiyyətindən danışmışdır.***

## Sığorta fəaliyyəti sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək sosial-iqtisadi inkişafda sığortanın rolundan, vaxtında sığortalanmağın əhəmiyyətindən bəhs etmişdir.

Qeyd olunmuşdur ki, baş verən bədbəxt hadisələr zamanı sığorta olunmuş vətəndaşlar sığortanın faydalarından bəhrələnərək onlara dəymiş maddi zərərlərin əvəzini ala bilirlər. Baş direktor hazırda həyata keçirilən icbari sığortalarla yanaşı, könüllü sığortaların da əhəmiyyətindən danışmışdır. Könüllü sığortalardan biri olan kənd təsərrüfatında sığorta işinin aparılmasının əhəmiyyəti vurğulanaraq bildirilmişdir ki, bu sahədə Kəngərli rayonunda da müəyyən işlər görülmüşdür.

Tədbirdə avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının, daşınmaz əmlakın icbari sığortasının, ev əmlakının sığortasının, avtonəqliyyat vasitələrinin tam sığortasının, fərdi qəza sığortasının hüquqi və fiziki şəxslər üçün nə dərəcədə əhəmiyyətli olduğu vurğulanmış, baş vermiş konkret hadisələr timsalında onların əhəmiyyəti barədə ətraflı məlumat verilmişdir.

Qeyd olunmuşdur ki, Kəngərli rayonunda icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığortaya cəlb olunmalıdır.

Sonra çıxışlar olmuşdur.

## İctimai iaşə obyektlərində çalışanların maarifləndirilməsi kurslarına başlanılıb

Naxçıvan Muxtar Respublikasında özəl sektorun inkişafına göstərilən hərtərəfli dövlət qayğısı sahibkarlığın inkişaf etdirilməsinə geniş imkanlar açmış, ümumi daxili məhsulda özəl bölmənin payı 87 faizi ötmüşdür. Yaradılmış şəraitin nəticəsidir ki, muxtar respublikada sahibkarlıq subyektlərinin sayı da artan dinamika üzrə inkişaf edir. Bu sahədə əldə olunmuş uğurlar, öz növbəsində, məşğulluq məsələlərinin həllində mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı aidiyyəti orqanlar tərəfindən qarşıya qoyulmuş vəzifə və tapşırıqların həlli istiqamətində həyata keçirilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə kursların təşkili də dövlət proqramının icrası istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Bu məqsədlə sentyabrın 17-də Naxçıvan Biznes Mərkəzində ictimai iaşə obyektlərində çalışanların maarifləndirilməsi kurslarına başlanılıb. Naxçıvan Biznes Mərkəzinin təşkilatçılığı ilə keçirilən kurslarda ictimai iaşə obyektlərində çalışanlar üçün "Ünsiyyət psixologiyası – etik davranış qaydaları", "İctimai iaşə obyektlərində sanitar-gigiyenik qaydalar", "Ərzaq mallarının saxlanılması normaları", "Azərbaycan kulinariyası" və "Müştəri psixologiyası" mövzularında kurslar keçiriləcək. Kurslar sentyabrın 22-dək davam edəcək.



Qeyd edək, bundan əvvəl Naxçıvan Biznes Mərkəzində sahibkar olmaq istəyənlər üçün "Sahibkarlıq fəaliyyətini öyrənirik" mövzusunda kurslar təşkil edilmişdi.

**Xəbərlər şöbəsi**

*18 sentyabr Milli Musiqi Günüdür*

# Azərbaycan milli musiqi sənəti zəngin tarixə malikdir

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci il 18 sentyabr tarixli Fərmanına əsasən, görkəmli bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu gün – sentyabrın 18-i hər il ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur.*

Azərbaycanın milli musiqi sənəti zəngin və çoxəsrlik tarixə malikdir. Yüksək musiqi duyumu ilə dünya xalqları içərisində seçilən xalqımızın yaradıcılıq istedadını, bədii təfəkkürünü özündə əks etdirən milli musiqi nümunələrimiz, xalq mahnılarımız min illərin sınağından keçərək bu gün də dünyaya səs salır, sevilə-sevilə dinlənilir, könülləri oxşayır. Həmçinin ölkəmizdə yüksək peşəkarlığı, orijinal musiqi üslubu ilə seçilən bəstəkarlıq məktəbi də formalaşmışdır. Bu məktəbin ən istedadlı yetirməsi, milli musiqimizin inkişafında misilsiz xidmətlər göstərmiş sənətkarlar sırasında görkəmli bəstəkar Üzeyir Hacıbəyovun adı xüsusi qeyd olunur.

Bu gün anadan olmasının 130 ili tamam olan Üzeyir Hacıbəyovun adı yaratdığı musiqi incilərində yaşayır. Onun qüdrətli sənəti, zərif və məlahətli musiqisi uzun illərdən bəri ürəkləri fəth edir. Azərbaycan Respublikasının Dövlət Himninin musiqisinin müəllifi kimi xalqımızın daim qəlbində yaşayacaq dahi bəstəkarın musiqi sənətinə məftun olmayan insan tapmaq çətindir. Dahi bəstəkarın ecazkar sənəti milli və coğrafi sərhədlər tanımır. Üzeyir Hacıbəyov Şərqdə ilk operanın, ilk musiqili komediyanın, milli musiqi mədəniyyətimizdə ilk kütləvi mahnıların, romans-qəzəllərin, kantata-oratoriya musiqisinin müəllifi kimi böyük şöhrət qazanmışdır. Onun zəngin və qüdrətli musiqisi milli və ümumbəşəri duyğuları əks etdirərək qəlblərə yol tapır, dinlənilir və sevilir. Ümummilli liderimiz Heydər Əliyev bəstəkarın şəxsiyyətinə və yaradıcılığına yüksək qiymət verərək deyirdi: ***"Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar Azərbaycan xalqının dirçəlməsinə, mədəniyyətinin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir. Bütün bunlara görə Üzeyir Hacıbəyov yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının iftixarıdır".***

Ümummilli liderimiz Heydər Əliyev ötən əsrin 70-ci illərində ölkəyə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan musiqi sənətinin inkişafı dinamik xarakter almışdır. Ulu öndər milli musiqimizin böyük simaları olan dünya şöhrətli bəstəkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmiş, Azərbaycan mədəniyyətinin inkişafına böyük diqqət və qayğı göstərmişdir. Həmin dövrdə korifey sənətkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşlər. Müstəqillik illərində ümummilli liderimiz ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan musiqisinin inkişafına böyük qayğı göstərmiş, bu sahədə ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir.

Ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu gün də uğurla davam etdirilir. ***"Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti Azərbaycanın musiqi mədəniyyəti ilə sıx bağlıdır"***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə Azərbaycan musiqi sənətinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, maddi-texniki bazaları gücləndirilir. Son illər ölkəmizdə milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində də uğurlu layihələr həyata keçirilir. Ölkəmizdə Beynəlxalq Üzeyir Hacıbəyov Musiqi Festivalı, Vokalçıların Bülbül adına beynəlxalq müsabiqələri, Bakı Beynəlxalq Caz Festivalı, Qəbələ Beynəlxalq Musiqi festivalları, Beynəlxalq Muğam, Beynəlxalq Rostropoviç, Beynəlxalq Aşıq festivalları, Beynəlxalq Muğam Simpoziumu və başqa yüksək səviyyəli tədbirlərin keçirilməsi musiqi mədəniyyəti sahəsində görülmüş işlərin əyani təzahürüdür.

Ölkəmizdə milli musiqi sənətimizin tanıdılması və təbliğinə xüsusi diqqət yetirilir. Dövlət başçısının sərəncamı ilə yaradılan və yüksək səviyyədə inşa olunaraq istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi qədim sənətə diqqət və qayğının daha bir ifadəsidir. 2011-ci ildə ölkəmizin "Eurovision" mahnı müsabiqəsində qalib gəlməsi və 2012-ci ilin may ayında Bakı şəhərində 57-ci "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi isə Azərbaycanın musiqi mədəniyyətini və yüksək təşkilatçılıq imkanlarını bir daha dünyaya nümayiş etdirmişdir. Musiqi mədəniyyətimizin inkişafı sahəsində həyata keçirilən tədbirlərdə Heydər Əliyev Fondunun mühüm xidmətləri vardır. 2005-ci ilin martında Parisdə "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminin keçirilməsi, "Üzeyir Hacıbəyov Ensiklopediyası"nın, "Muğam Ensiklopediyası"nın, "Muğam" jurnalının işıq üzü görməsi mədəniyyətimizin tanıdılması sahəsində həyata keçirilən mühüm tədbirlərdəndir. 2003-cü ildə Azərbaycanın muğam, 2009-cu ildə aşıq sənətinin, 2012-ci ildə tar ifaçılığı sənətinin YUNESKO tərəfindən "Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı"na daxil edilməsi isə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxsaylı tədbirlər sırasında qədim musiqi mədəniyyətimizə verilən qiymətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Muxtar respublika mədəniyyəti bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Bu yüksəlişin fonunda milli musiqi sənətinin də inkişafı təmin olunmuşdur. Son illər Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 29 mart tarixli "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamına əsasən, bu il musiqi ocağının yubileyi muxtar respublikamızda geniş qeyd olunur, yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulur. Musiqinin inkişafına göstərilən qayğı Naxçıvan bəstəkarlarının yaradıcılıq imkanlarını da genişləndirmişdir. Onlar yaradılan şəraitdən istifadə edərək yeni əsərlər yazır, Azərbaycan musiqi sənətini dəyərli incilərlə zənginləşdirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Muxtar Respublikasının bəstəkarları milli musiqi xəzinəmizi yeni mahnılarla, dəyərli sənət nümunələri ilə zənginləşdirirlər. Naxçıvanda yaşayıb fəaliyyət göstərən gənc və təcrübəli bəstəkarların yaradıcılığı bu sahədə də varislik ənənələrinin davam etdirildiyini göstərir".***

Bu gün muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülür. Ötən dövrdə Naxçıvan Dövlət Filarmoniyasının xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurla çıxış etmiş, musiqi kollektivlərinin və Şərur Xalq Yallı Ansamblının çıxışları maraqla qarşılanmışdır.

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə etmişdir. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bu gün muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Bu il Naxçıvan şəhərinin Qaraçuq və Culfa rayonunun Bənəniyar kəndlərində uşaq musiqi məktəbləri üçün yeni binalar istifadəyə verilmişdir. Naxçıvan şəhərindəki 2 nömrəli Uşaq musiqi məktəbi üçün də yeni bina inşa olunmuş, musiqi təhsilinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmışdır. Hazırda Sədərək Rayon Uşaq musiqi məktəbi üçün yeni binanın tikintisi davam etdirilir.

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmışdır. Həmin tarixdən etibarən Novruz bayramı ərəfəsində keçirilən şənliklərdə Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri və aşıq sənətini yaşadan musiqi kollektivlərinin çıxışları təşkil edilir.

*Musiqi insanları bir-birinə yaxınlaşdırmaq, doğmalaşdırmaq gücünə malikdir. Bu gün Azərbaycan musiqisi dünyanın qəbul etdiyi sənət nümunəsidir. Zaman dəyişir, zövqlər dəyişir, əsl musiqi isə əbədi yaşayır.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzində saxlanılır

*İntellektli, vətənpərvər və geniş dünyagörüşə malik gənc nəslin yetişdirilməsi hər bir ölkənin gələcək inkişafı üçün başlıca şərtdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki,* ***"Bizim hamımızın vəzifəsi Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, respublikamızın gənclərini Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir".***

Ulu öndərin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün muxtar respublikada uğurla həyata keçirilir. Gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakının təmin edilməsi, onların sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq tədbirlərin həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir.

Bu gün muxtar respublikada gənclər onlara göstərilən dövlət qayğısını bütün sahələrdə olduğu kimi, asudə vaxtlarının səmərəli təşkilində də hiss edirlər. Gənclərin asudə vaxtının səmərəli təşkili istiqamətində aid dövlət orqanları, gənclər təşkilatları, ictimai birliklər tərəfindən hər il mühüm layihələr reallaşdırılır. Qeyd olunan tədbirlər sırasında yay məktəblərinin keçirilməsi xüsusi yer tutur. Bu layihə çərçivəsində həm gənclərin təbiət qoynunda mənalı istirahəti təşkil olunur, həm də onların digər gənclərlə sağlam ünsiyyəti yaranır, uşaq və gənclərdə sərbəst düşünmək, özünə güvənmək və digər müsbət ictimai cəhətdən faydalı davranışlar formalaşır.

Naxçıvanın zəngin təbiəti, geniş turizm potensialı və son illər yaradılan müasir turizm infrastrukturu gənclərin yay məktəblərinin nümunəvi təşkilinə imkan verir. Bu baxımdan Şahbuz rayonu ideal məkanlardandır. Yay tətili günlərini rayonun səfalı kəndlərində keçirmək istəyənlərin sayı ilbəil artır. Muxtar respublikada kənd turizminin təbliğ olunduğu ilk yaşayış məntəqəsi də Şahbuz rayonunun Ağbulaq kəndidir. Artıq Ağbulaq İstirahət Mərkəzi muxtar respublikada gənclərlə bağlı bir sıra sosial layihələrin həyata keçirildiyi məkanlardan birinə çevrilmişdir. Belə ki, mərkəzin yaradılması təkcə kənd əhalisinin məşğulluğu və turizmin inkişafı baxımından deyil, həm də ilin müxtəlif fəsillərində öz asudə vaxtını səmərəli keçirən məktəbli gənclərin ekoloji tərbiyəsi və müxtəlif həssas əhali qruplarının zəruri tələbatlarının ödənilməsi baxımından da uğurlu layihədir.

Ağbulaq İstirahət Mərkəzində gənclər üçün yay məktəblərinin təşkili olunması artıq bir ənənə halını almışdır. 2013-cü ildən başlayaraq hər il burada gənclərin yay məktəbi təşkil edilir. 2015-ci ildə də bu ənənə davam etdirilmiş, gənclərin, məktəblilərin, aztəminatlı ailələrin uşaqlarının və sağlamlıq imkanları məhdud uşaqların yay məktəbi keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Gənclər Fondu, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə 3 iyul – 10 sentyabr tarixlərini əhatə edən yay məktəbi dövründə gənclərdən ibarət 9 qrup müxtəlif vaxtlarda Ağbulaq İstirahət Mərkəzinə göndərilmişdir. Bu il təşkil olunan yay məktəbində muxtar respublika üzrə, ümumilikdə, 395 nəfər iştirak etmişdir ki, onların 225-i şagird, 135-i tələbə, 35-i isə sağlamlıq imkanları məhdud olan şəxslər olmuşdur.

İştirakçılar yay məktəbində əvvəlcədən müəyyənləşdirilmiş günün nizam qaydasına uyğun olaraq hərəkət etmişlər. Gənclər arasında müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar, seminarlar, diskussiyalar keçirilmiş, Azərbaycan filmləri nümayiş etdirilmiş, gənclərə tariximiz, milli dəyərlərimiz və adət-ənənələrimiz haqqında ətraflı məlumatlar verilmişdir. Bu da onların vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş məktəblilərin Ağbulaqda qaldıqları bir həftə ərzində hər gün yaddaqalan tədbirlər, oyunlar, yarışlar keçirilmişdir. Şübhəsiz, dəniz səviyyəsindən, təqribən, 2 min metr yüksəklikdə, yaşıl təbiətin qoynunda keçirilən bu tədbirlər gənclərin sağlam böyüməsi baxımından mühüm əhəmiyyətə malikdir. Çünki birgünlük tələm-tələsik, proqramsız təşkil olunan gəzintilərdən fərqli olaraq, belə istirahət mərkəzlərində mütəşəkkil formada keçirilən yay məktəbləri öz məqsədyönlülüyü ilə digərlərindən çox fərqlənir. Belə ki, burada müxtəlif yaşdan olan məktəblilərin və gənclərin bir-biri ilə dostluq qurması, onların təbiətlə birbaşa ünsiyyət yaradaraq müxtəlif ekskursiya marşrutlarına yollanması üçün əlverişli şərait vardır. Tərtib olunmuş tədbirlər planına əsasən, bu il yay məktəbində iştirak edən gənclər arasında futbol yarışı, şeir və rəsm müsabiqələri, "Xəmsə" milli intellektual oyunları, poeziya gecələri keçirilmişdir. Məktəblilər Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə, Şahbuz Dövlət Təbiət Qoruğuna, Batabat yaylağına və Astrofizika Rəsədxanasına, eləcə də təbiət qoynuna ekskursiyalara aparılmışlar.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaq və gənclərin cəmiyyətə inteqrasiyası, onların asudə vaxtlarının səmərəli təşkili də daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Bu il 20-25 iyul tarixlərində sağlamlıq imkanları məhdud 35 məktəbli uşağın valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətlərinin təşkil olunması da göstərilən bu qayğının daha bir ifadəsidir. Yay məktəbinin proqramına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə müxtəlif idman yarışları, intellektual oyunlar keçirilmiş, vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilmişdir. Uşaqlar təbiət gəzintisinə, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə aparılmış, fiziki imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu onlar qarşısında konsert proqramı ilə çıxış etmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən ayrılmış nəzarətçi həkimlər yay məktəbinin keçirildiyi müddətdə uşaq və gənclərin yanında olmuş, onları vaxtlı-vaxtında müayinə etmişlər.

**Ağbulaq İstirahət Mərkəzində keçirilən yay məktəbi bir nəticəni ümumiləşdirir: sağlam, yüksək intellektli, geniş dünyagörüşlü, vətənpərvər gənclik ölkənin gələcəyidir. Buna görə də onların təhsili, mənalı istirahəti, sağlamlığı və vətənpərvər ruhda tərbiyəsi yolunda həyata keçirilən tədbirlər davam etdirilməlidir.**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun mətbuat xidməti***

# Nikahdan öncə tibbi müayinə sağlam cəmiyyətin qarantıdır

### Sonrakı peşmançılıq

Əslində, yazımın qəhrəmanları elə məhz bunu etmədikləri üçün bu yazının "qəhrəmanları"na çevrildilər. Kənardan kifayət qədər xoşbəxt görünməyə çalışan bu cütlük zamanında nikah öncəsi tibbi müayinədən keçsəydi, bu gün nə qeyri-sağlam körpələri ilə günlərini səhiyyə ocaqlarında keçirməyə, nə də hər nə qədər etiraf etməsələr belə, ətrafın qınaq dolu baxışlarının altında əzilməyə məcbur olacaqdılar.

Adlarının gizli qalmasını istəyən qəhrəmanlarım artıq 5 ildir ki, ailə həyatı qurublar. İndi onların 3 yaşında, həm də talassemiyalı bir qızı var. "Biz nə etsək də artıq bunu dəyişə bilmərik. İldə ən azı 8-10 min manat qızımızın müalicəsinə xərcləyirik. Bu, o qədər də asan deyil. Həm maddi, həm də mənəvi-psixoloji çətinliyimiz çoxdu. Onu da bilirik ki, nə qədər çalışsaq da, övladımız ən çoxu 25 il ömür yaşayacaq. Bunu bilmək bizə hər şeydən ağırdır".

Qəhrəmanlarımın övladlarının talassemiyalı doğulması onların hər ikisinin talassemiya daşıyıcısı olması ilə əlaqədardır. Lakin onlar özləri belə, daşıyıcı olduqlarını bilmirmiş. Gec də olsa, indi etiraf edirlər: "Əgər nikah öncəsi tibbi müayinədən keçməyi bizə kimsə məsləhət görsəydi, yəqin ki, xəbərimiz olardı və həkimlərin dediyinə görə, bu zaman bizim sağlam uşaq dünyaya gətirmək şansımız az da olsa, vardı".

### Sağlam ailələr dövlətin, dövlət isə sağlam ailələrin qurulmasının qarantıdır

Dəyərli oxucum, heç birimiz qeyri-sağlam uşaq dünyaya gətirməyi, yaxud hər hansı xəstəlik ucbatından ailəmizin dağılmağını istəmərik. Bunu dövlətimiz də istəmir və ölkəmizdə yeni qurulan ailələrin təməlinin sağlam qoyulması üçün mühüm addımlar atılır. Axı ailə həm də kiçik dövlət deməkdir!

Bu addımlardan biri də 1 iyun 2015-ci il tarixdən aparılan icbari tibbi müayinədir. 2014-cü ilin dekabr ayında Ailə Məcəlləsinə dəyişikliklər edilib. Qanuna əsasən, nikaha daxil olmaq barədə ərizəyə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış da əlavə olunub. Başqa sözlə desək, əvvəllər tibb mütəxəssisləri bunu, sadəcə, tövsiyə olaraq insanlarımıza məsləhət görürdülərsə, bu gün nikah öncəsi müayinə məcburi prosedura çevrilib.

Muxtar respublikamızda bu sahədə görülən işlər barədə, ümumilikdə, mövzu ilə bağlı suallarımızı cavablandıran Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva deyir ki, nikahdan əvvəl icbari tibbi müayinə sağlam ailənin qarantı olan bir addımdır. Sağlam nəsil və sağlam gələcək yetişdirmək bu gün aktual məsələlərdəndir. Müsahibimizin sözlərinə görə, icbari tibbi müayinə, əsasən də qanqohumluğu olan şəxslər üçün vacibdir. Çünki bəzi xəstəliklər var ki, genetik yolla, ana və ya atadan yoluxmaqla bir nəsildən digər nəslə ötürülür. Sitat: "Valideynlər, evliliyə hazırlaşanlar unutmamalıdır ki, icbari tibbi müayinə onları gözlənilən təhlükədən qorumaq üçün aparılır. Öz övladının sağlamlığına və taleyinə laqeyd yanaşan insanı təsəvvür etmək çətindir. Övladlara qayğı onlar dünyaya gəldikdən sonra deyil, ailə planlaşdırılması mərhələsində başlamalıdır. Valideynlərin sağlamlığı onların gələcək övladlarının sağlamlığına əhəmiyyətli dərəcədə təsir göstərir. Sağlam və möhkəm ailənin yaradılması üçün nikaha daxil olan şəxslər bir-birinin sağlamlığı haqqında məlumatlı olmalıdırlar, əks halda, arzuolunmaz problemlər meydana çıxa bilər".

### Bəs nikahdan öncə hansı müayinələrdən keçmək lazımdır?

Nikaha daxil olan şəxslər – məsləhət üçün qadınlar ginekoloqa, kişilər isə uroloqa və ya androloqa müraciət etməlidirlər. Bu profilaktik diaqnostika və müalicə üçün imkan yaradır. Nikaha daxil olanlar ultrasəs müayinəsindən və bir sıra infeksiyalar, o cümlədən hepatitlər, sifilis və HİV, hemoqlobinopatiyalar, böyük beta-talassemiya, beta-talassemiya, drepanotalassemiya, oraqvarı hüceyrəli anemiya kimi xəstəliklər üzrə tibbi müayinədən keçməlidirlər. Müayinədən keçmək üçün nikaha düşənlərin hər biri qeydiyyat yeri üzrə yoxlanılmalıdır. Yəni inzibati ərazi faktoru müayinələr üçün xüsusi əhəmiyyət daşıyır və göndərişlər qeydiyyat yeri üzrə verilir. Ancaq qanun bəzi istisnalara da yol verir ki, qeydiyyat yerindən kənarda yoxlamalar aparılsın. Bu da, əsasən, xarici ölkə vətəndaşlarına və hərbi qulluqçulara aid edilir.

Gültəkin Əliyevanın bildirdiyinə görə, Naxçıvan şəhərinin qeydiyyatında olan vətəndaşların müraciət edəcəkləri ünvan Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzidir. Müraciət edən şəhər sakinlərinə müayinə üçün göndəriş məhz buradan verilir. Göndəriş alan vətəndaşlar müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi və Naxçıvan Muxtar Respublika Xəstəxanasının Hemotologiya şöbəsində müayinələrdən keçirlər.

### Tibbi müayinənin nəticələri həkim sirridir

Tibbi müayinədən sonra nikaha daxil olmaq istəyən şəxslər müayinənin nəticəsi barədə ayrı-ayrılıqda məlumatlandırılır və buna uyğun olaraq, onlara tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhətlər verilir. Lakin son prosedur zamanı, yəni məsləhətlər verilərkən hər iki tərəfin iştirakı vacibdir.

Mütəxəssisin sözlərinə görə, nikaha daxil olan şəxslərin tibbi müayinələrinin nəticələri həkim sirridir və müayinənin nəticəsi şəxsin icazəsi olmadan qarşı tərəfə açıqlanmır. Lakin bir nüans var ki, hər hansı təhlükə törədən xəstəliyin bilərək və ya bilməyərək qarşı tərəfdən gizlədilməsi faktı ortaya çıxdığı halda digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər. Bu zaman bilərək gizlədilmə faktı məlum olarsa, şəxs hətta cinayət məsuliyyətinə belə, cəlb oluna bilər.

Statistik rəqəmlər göstərir ki, muxtar respublikada qurulan yeni ailələrin əksəriyyəti nikah öncəsi tibbi müayinədə maraqlıdır. Qanunda edilən dəyişikliyin qüvvəyə minməsindən cəmi 3 aydan bir az artıq müddət keçməsinə baxmayaraq, qısa zaman kəsiyində 480 nəfərdən artıq vətəndaş tibbi müayinədən keçib.

Gültəkin Əliyevanın sözlərinə görə, müayinələrin nəticələrini, ümumilikdə, sevindirici hesab etmək olar: "Muxtar respublika 3 dövlətlə həmsərhəddir. Bunlardan ikisi – Türkiyə və İranla sıx əlaqələrimiz var. Və bu sərbəst gediş-gəliş yoluxucu xəstəliklərin yayılma riskini artırır. Təqribən, 500 nəfərdən cəmi 1-də şübhəli xəstəlik qeydə alınması çox yaxşı nəticədir. Hazırda əksər ölkələrdə bu göstərici 100 nəfərdən 12-də müşahidə olunur.

### Xoş olmayan nəticə evliliyi qadağan edə bilərmi?

Bu sualın birmənalı cavabı "xeyr"dir. Heç bir halda nəticədən asılı olmayaraq, qanun evliliyi qadağan etmir. Burda məqsəd hər hansı bir problemi öncədən bilib onun qarşısını almaqdır.

Gültəkin Əliyevanın dediklərindən: "Bir nüansı qeyd edim ki, bəzi hallarda gənclər nikahdan əvvəl tibbi müayinədən keçməyə ehtiyat edirlər. Gəlsələr də, qarşı tərəfin xəbəri olmadan gəlib yoxlanırlar.

Müayinə nəticələrinin necə çıxmasından asılı olmayaraq, ayrılmayacaqlarını, bunun üçün də tibbi müayinəyə ehtiyaclarının olmadığını düşünənlər də var". Həkim-ginekoloq isə belə halın evlilikdən sonra mövcud problemin həllini qəlizləşdirdiyini deyir: "Nə qədər tez müraciət etsələr, problemləri aradan qaldırmaq bir o qədər asan olar".

### Ailə quran gənclərin məsələyə baxışı

Digər həmsöhbətlərim bu yaxınlarda evlənəcək Samir və İnci idi. Onlar artıq müayinədən keçib və məsləhət üçün həkim-ginekoloq Gültəkin Əliyevaya müraciət ediblər. İnci deyir ki, bu qərarı eşidəndə çox sevindik. Qohum nikahlarının törətdiyi fəsadlar haqqında çox danışılır. Bu, bizi qorxudurdu. Çünki Samir mənim xalam oğludur. Ancaq müraciət etdikdə həkimlər tərəfindən hər bir halda bizə kömək edə biləcəklərini eşitdikdə sevindik. Şükürlər olsun ki, müayinə nəticələri yaxşı çıxdı".

Gələcək gənc ailə başçısı Samirin fikrincə, ailə quracaq insanların bir-birinin səhhəti barədə tam məlumatı olmalıdır: "Nəticədən asılı olmayaraq, biz yenə də bir-birimizin yanında olacağdıq. Ailə hər şeyi birlikdə etməkdir, həyatı bölüşmək deməkdir".

*Bir sözlə, müayinənin nəticələri nə olursa-olsun, bu, tərəflər arasında münasibətləri dəyişdirməyə əsas ola bilməz. Təbii ki, söhbət sevgi, inam və hörmət üzərində qurulan ailələrdən gedir. Tibbi müayinə evlənəcək şəxsləri, sadəcə, gözlənilən təhlükədən qorumaq üçün aparılır. Düşünəndə ki, gələcək ailə cəmiyyət qarşısında müəyyən məsuliyyət daşıyır, deməli, insanlıq naminə biz bu müayinələrdən keçməliyik.*

**Gülnar YÜZBAŞIYEVA**

---

***İdman sahəsində qazanılan nailiyyətlər dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi səciyyələndirilir. Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. Uğurlu idman siyasətinin nəticəsidir ki, Azərbaycan dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da idman sahəsində qazanılan uğurlar saysız-hesabsızdır. Bunun səbəbi isə idmana göstərilən diqqət və qayğıdır.***

# Yaradılan şərait bədii gimnastikaya marağı artırır



Bir il öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində bədii gimnastika bölməsi yaradıldı. Qısa zaman kəsiyində bu bölmənin fəaliyyət dairəsi genişləndi və hazırda 100-dən çox 3-11 yaşlı qızlar bu idman növü ilə məşğul olur. Aktyorluq, balet, musiqi və pantomim ilə birlikdə edilən bədii gimnastikanın özünəxas qaydaları və qiymətləndirmə sistemi var. Qız uşaqlarının fiziki tərbiyəsində mühüm rol oynayan bədii gimnastika onlarda elastik və çevik hərəkətlərin meydana gəlməsinə imkan yaradır. Bu idman növündə insanın hər bir hiss və həyəcanı bədənin müəyyən hərəkəti ilə müşayiət olunur.

Həm də incəsənət kimi göstərilən bu növ özündə iki yarış proqramını birləşdirir: fərdi çıxışlar və qrup hərəkətləri. Hər bir qrup komandası 5 əsas və 1 ehtiyatda olan gimnastdan ibarət olur və ehtiyatda olan gimnast 2 hərəkətdən birində çıxış etməlidir. Bədii gimnastika sırf qadın idman növüdür və ölçüsü 13x13 metr olan xüsusi xalçada musiqinin müşayiəti ilə yerinə yetirilir.

Gimnastların çıxışı iki hakim briqadası tərəfindən qiymətləndirilir – onlardan biri çətinlik üzrə, digəri isə icra üzrə hakimlik edir. İcra üzrə xallar hesablanarkən artistizm və hərəkətlərin texnikası da nəzərə alınır.

Muxtar respublikada bu idman növünün inkişafı və kütləvi hal alması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. İlk olaraq, Gənclər və İdman Nazirliyinin nəzdində olan bu bölmə üçün zal ayrılıb. Məşqçi-müəllim, bədii gimnastika üzrə Azərbaycan Respublikasının idman ustası Humay Qafarovanın dediklərindən: "Artıq bir ildir ki, fəaliyyət göstəririk. Bu müddət ərzində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə uşaqları bu idman növünə cəlb etmək üçün müəyyən təbliğat işləri aparmışıq. Sevindirici haldır ki, bu gün muxtar respublikada bədii gimnastikaya olan maraq gündən-günə artmaqdadır".

Bu növü Naxçıvanda kütləvi hala gətirmək üçün lazımi şərait yaradılıb. Məşqçi-müəllim bildirdi ki, bir il ərzində gimnastika ilə məşğul olmaq istəyənlərin sayının çox olması sevindirici haldır: "Yay aylarında müraciət edənlərin sayı daha çox olur və həftənin hər günü məşqlər keçirilir. Yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq məşqlər günün ikinci yarısında olacaq. Hazırda 100-ə yaxın uşaq gimnastika ilə məşğul olur. Təbii ki, müraciət edən valideynlər yaradılan şəraitdən çox məmnundurlar. Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasının idman zalı bədii gimnastika üçün ayrılıb. Burda uşaqların rahat məşq etməsi üçün xüsusi döşək salınıb. Həmçinin zal gimnastika üçün 13x13 metr olan xüsusi xalça ilə təmin olunub. Bununla yanaşı, zala güzgülər qoyulub. Məqsəd elit idman növü olan bədii gimnastikanı muxtar respublikada kütləvi hala gətirməkdir".

**Ceyhun MƏMMƏDOV**

---

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi

### *muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydası Ali Məclis Sədrinin 18 noyabr 2010-cu il tarixli Sərəncamı ilə müəyyən olunur.

Yaranmış ehtiyac və boş ştat vahidləri nəzərə alınaraq muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqəyə yalnız ali məktəbləri Hüquqşünaslıq ixtisası üzrə bitirən şəxslər buraxılır. Bir qayda olaraq, namizədlərin yaşı 30-u keçməməlidir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər ***www.dgk.nmr.az*** internet saytına daxil olmaqla "Gömrük orqanlarında xidmətə qəbul" bölməsində muxtar respublikanın gömrük orqanlarına işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə qeydiyyat bir ay müddətində – sentyabr ayının 18-dən oktyabr ayının 18-dək davam edəcək. Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən, fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, gömrük, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Müsabiqə hər bir namizədin gömrük işi üzrə bilik səviyyəsinin, ümumi dünyagörüşünün, gömrük orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Xarici dil bilən (əsasən, rus və ingilis) və kompüterdə işləmək bacarığı yüksək olan şəxslərə müsabiqənin müsahibə mərhələsində üstünlük verilir.

***Əlaqə telefonları:***
***(036) 544-49-60; 544-49-72***


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 711